**UOT 316**

# SOSİAL RİSK ALTINDA OLAN ƏHALİ QRUPLARI DAİRƏSİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

**Ramil Babayev**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, doktorant
ORCID ID: 0000-0002-5755-670X
DOİ:10.30546/sw.2022.2.39.123

**Xülasə**. Məqalədə sosiologiyadakı “risk qrupu” anlayışı ilə bağlı terminoloji məsələlərdən və bu kateqoriyada yer alan qrupların təsnifatı məsələlərindən bəhs edilir. Məqalə bu kontekstdə bir-birinə alternativ kimi istifadə olunan məfhumların açılışını verir. Bu sahədə əhali qrupları ilə bağlı bölgülərin müxtəlif olmasının səbəbləri də məqalədə izah edilir.
**Açar sözlər**. sosial risk, risk qrupu, həssas əhali, çətin həyat şəraiti, risklərdən qoruyucu amillər

“Sosial risk altında olan”, “yüksək riskli”, “həssas”, “çətin həyat şəraitində olan” kimi anlayışlar sosial problemlərdən əziyyət çəkən əhali qruplarını təsvir etmək üçün istifadə olunan anlayışlardan bir neçəsidir. Bu anlayışların eyni, yoxsa fərqli sosial reallıqları ifadə etməsini müəyyənləşdirmək üçün onların ehtiva etdiyi sosial qrupların dairəsinin müəyyənləşdirilməsi vacibdir. Mövcud ədəbiyyatların nəzərdən keçirilməsi nəticəsində eyni bir anlayışın fərqli müəlliflər tərəfindən fərqli formalarda konseptuallaşdırıldığını görmək mümkündür və bu konseptuallaşdırma, bir çox hallarda, təriflərin ardınca üçdən qırxa qədər sayda müxtəlif əhali qruplarının ardıcıl şəkildə sadalanması yolu ilə həyata keçirilir.

Risk altında olan əhali dedikdə, həyati əhəmiyyətli hadisənin baş verməsinə məruz qala biləcək əhali qrupu nəzərdə tutulur (8, s. 411). Burada risk faktoru kimi hansı sosial fenomenin əsas götürüldüyü riskin daşıyıcılarını müəyyən etməyin əsasında durur. Məsələn, işsizlik nümunəsində əmək qabiliyyətli insanlar, boşanma nümunəsində qanuni nikahda olan insanlar, təhsildə müvəffəqiyyətsizliklə bağlı məktəb yaşındakı uşaqlar və s. həmin məsələlər nöqteyi-nəzərindən geniş mənada riskin daşıyıcılarıdır.

Sosial problemləri qiymətləndirmək üçün hansı risk faktorunun əsas götürülməsi məsələsi bizdən “sosial risk” anlayışının tərifinin verilməsini tələb edir. Sosial elmlərdə mövcud olan əksər terminlər kimi, bu anlayışın təsvirinə də müxtəlif ədəbiyyatlarda fərqli formalarda rast gəlmək mümkündür. Məsələn, bu termin “Ailələrə və tənha sakinlərə maddi sosial yardım haqqında Litva respublikasının qanunu”nun əsas anlayışlarından biri olduğu üçün həmin qanunda anlayışın daha əhatəli tərifinə yer verilmişdir. Bu tərifə əsasən, “Sosial risk dedikdə, şəxslərin sosial təcrid edilməsinə səbəb olan və ya onları sosial təcridolunma riski altında qoyan amillər və hallar başa düşülür: uşaqlara (həmçinin övladlığa götürülmüş uşaqlara) lazımi qaydada qulluq etmək və tərbiyə etmək üçün böyüklərin sosial bacarıqlarının olmaması və ya çatışmazlığı; uşaqların hərtərəfli fiziki, əqli, mənəvi, əxlaqi inkişafı və təhlükəsizliyi üçün şəraitin təmin edilməməsi; psixoloji, fiziki və ya cinsi istismar halları; zorakılıq; cinayət fəaliyyətində iştirak və ya bu fəaliyyətlərə cəlb olunmağa meyillilik; narkotik vasitələrdən, psixotrop maddələrdən, spirtli içkilərdən, qumardan asılılıq; dilənçilik, avaralıq, yoxsulluq və evsizlik; əmək bazarında iştirak etmək üçün motivasiyanın olmaması” (17, s. 4). Şəxslərin və qrupların rifahına mənfi təsir göstərən hər amilin buraya daxil edilməsinin mümkünlüyü sosial risklərin qruplaşdırılması tələbini meydana çıxarır. Burada ən təbii qruplaşma sosial həyatın sferaları üzrə iqtisadi risklər, sağlamlıqla bağlı risklər, təbii fəlakətlərlə bağlı risklər, sosial münasibətlərin ahənginin pozulması riskləri və s. bölgüsüdür. Digər bir bölgü kimi, riskin miqyasını əsas alaraq fərdi risklər, ailələrlə bağlı risklər, icmalarla bağlı risklər və bütövlükdə cəmiyyətin funksionallığını pozan riskləri ayıra bilərik.

Girişdə qeyd olunan digər anlayışlarla bağlı təriflərə nəzər saldıqda görmək mümkündür ki, bu anlayışların tərifləri və əhatə dairələri barəsində konsensus yoxdur və bir çox hallarda anlayışların bir-birinin əvəzinə alternativ şəkildə istifadə olunması halları ilə qarşılaşmaq mümkündür. “Həssas əhali qrupları” ifadəsi ilə bağlı ÜST-in tərifində meyar kimi “əhalinin, fərdin və ya təşkilatın bədbəxtliklərin nəticələrini qabaqcadan görmək, onların öhdəsindən gəlmək, onlara müqavimət göstərmək və onlardan

sağalmaq iqtidarında olmadığı hədd”ə yer verilir (15, s. 7). Bunun davamında isə, həssas əhali qrupları kimi uşaqlar, hamilə qadınlar, yaşlı insanlar, qida çatışmazlığından əziyyət çəkənlər, xəstə və immun çatışmazlığı olan insanlar fərqləndirilir.

ÜST-in yanaşması üzərində qurulan həssas əhalini sağlamlıq məsələləri əsasında qiymətləndirmə ənənəsi bu sahədə hakim ənənədir. Həmin ənənənin əsaslarını ÜST-in yarandığı il, 1948-ci ildə sağlamlıqla bağlı verdiyi tərifdə də görmək mümkündür. Bu tərifə əsasən, “sağlamlıq yalnız xəstəliklərin və ya zəifliyin olmaması deyil, tam şəkildə fiziki, əqli və sosial rifah halıdır” (18). Sosial problemlərin nəzəri məsələlərindən bəhs edən ədəbiyyatlarda çox geniş şəkildə istinad edilən bu tərif iş tapmaq imkanlarının olmadığı, insanların sosial risklərdən sığortalana bilmədiyi, gəlir bərabərsizliyinin olduğu bir mühitdə şəxsin tam sağlam ola bilməyəcəyini nəzərdə tutur.

Amerika Qayğı İdarəetməsi Jurnalında 2006-cı ildə dərc olunmuş bir məqalədə də həssas əhali oxşar mövqedən qiymətləndirilir və burada həssas insanlar fiziki, psixoloji və sosial sağlamlıq istiqamətləri üzrə qruplaşdırılır (1, s.1). Həmin bölgüyə fiziki ehtiyacı olan həssas əhaliyə xəstəlik riski daşıyan analar və körpələr, xroniki xəstələr və əlillər, İİV/QİÇS ilə yaşayan şəxslər aid edilir. Xroniki xəstəliklər sırasında tənəffüs xəstəlikləri, diabet, hipertoniya, dislipidemiya və ürək xəstəlikləri sadalanır. Psixoloji sahədə həssas əhali qruplarına şizofreniya, bipolyar pozğunluq, major depressiya və diqqət çatışmazlığı, hiperaktivlik kimi xroniki psixi vəziyyəti olanlar, həmçinin alkoqol və ya narkotik maddə asılılığı olanlar və intihara meyilli şəxslər aid edilirdi. Sosial sahədə isə müəlliflər həssas əhaliyə zorakılıq hallarının olduğu ailələrdə yaşayanları, evsizləri, qaçqın və məcburi köçkünləri aid edirdilər (1, s. 1-4). Sosial elmlər üzrə müəyyən bilik səviyyəsinə yetişmiş şəxslər bu bölgüdə sosial sahə kimi ayrılmış bəndləri məhdud hesab edə bilərlər. Yoxsulluq, cinayətkar həmyaşıd qruplarında yeralma, uşaq əməyi və s. kimi məsələləri də əlavə etməklə, sağlamlıq nöqteyi-nəzərindən məsələyə yanaşan siyahının daha da genişləndirilməsi mümkün ola bilər.

Bu kateqoriyaların elmi dövriyyəyə geniş şəkildə daxilolma tarixi kimi XX əsrin əvvəllərini göstərə bilərik. Həmin dövrdə uşaq hüquqlarına və uşaqların müdafiəsinə daha çox diqqət yetirilməyə başlanmışdı ki, bununla bağlı diskurslarda da ifadələrin möhkəmlənmə prosesi sürətlənmişdi (3, s. 12). Həmin tarix sosial işin institusionallaşmağa başladığı tarixlə də üst-üstə düşür. Bu mənada eyni və ya oxşar sosial fenomenlərin fərqli anlayışlarla ifadə olunmasının səbəblərindən biri kimi, bu terminlərin anlayışlarının daha əvvəlki əsrlərdən möhkəmlənməyə başlamış bir elmin tərkib hissəsi olmamasını görə bilərik.

Azərbaycan Respublikasının sosial sahədəki qanunvericiliyində bu əhali qruplarını təsvir etmək üçün istifadə olunan əsas anlayış isə “çətin həyat şəraiti” anlayışıdır. Sosial xidmət haqqında Azərbaycan Respublikası Qanununun 1.0.2-ci maddəsinə əsasən, “çətin həyat şəraiti - şəxsin (ailənin) sosial xidmətə götürülməsi üçün əsas yaradan və həyat fəaliyyətini obyektiv surətdə pozan, təkbaşına aradan qaldıra bilmədiyi hal” kimi ifadə olunur (19).

Həmin Qanunun 7-ci maddəsi isə hansı halların ‘‘çətin həyat şəraiti’’ hesab olunacağını açıqlayır və burada yetkinlik yaşına çatmayanlar arasında valideynlərini itirən və ya valideyn himayəsindən məhrum olanlar, sağlamlıq imkanları məhdud olanlar, baxımsız və ya sosial təhlükəli vəziyyətdə olanlar çətin həyat şəraitində hesab olunurlar. Bundan əlavə, özünəqulluq qabiliyyətinin xəstəlik, əlillik və ya ahıllıqla bağlı olaraq itirilməsi və həmçinin bu funksiyanı yerinə yetirəcək əmək qabiliyyətli qohumun, yaxud qanuni nümayəndənin olmaması halı, həyat fəaliyyətində təhlükəli xəstəliyə tutulma səbəbilə məhdudluq yaşanması halı, insan alveri və ya məişət zorakılığının qurbanına çevrilmə halları, yaşayış yerinin mövcud olmaması (həmçinin dövlər sosial qayğı müəssisələrinin məzunları üçün də) halı, sosial yadırğama və sosial məhrumiyyət yaşamaq halları da çətin həyat şəraiti kimi qiymətləndirilib.

Bu anlayışlarla bağlı olan “risk qrupu” termini getdikcə artan formada gündəlik istifadəyə daxil olmaqdadır. Sosial riskləri qiymətləndirən ədəbiyyatlarda risk qrupu anlayışının həm uşaq və yeniyetmələrə, həm ailələrə, həm də daha böyük əhali qruplarına aid edildiyini görmək mümkündür (9, s. 32-33; 20). Digər tərəfdən, “risk qrupunda olan uşaqlar” və “risk qrupu ailələri” anlayışları praktikada əksər hallarda kəsişirlər, çünki uşağın şəxsiyyətinin inkişafında, cəmiyyətə adaptasiyası və inteqrasiyası üçün zəruri olan sosial rollar, bilik və bacarıqların mənimsənilməsində aparıcı rolu ailə oynayır.

Risk qrupu anlayışının dəqiq tərifinin olmaması səbəbindən bəzən qruplaşdırma etməkdə ciddi fikir ayrılıqları yaşanır. Məsələn, hakim yanaşmalardan biri budur ki, 18 yaşına çatmamış fərd özü

özünə kifayət edə bilən fərd olmadığı üçün o, istənilən halda, yaşına görə risk qrupunda sayılmalıdır. Digər mövqeyə görə, sağlamlıq imkanlarının məhdudluğu, zorakılığa məruz qalmaq ehtimalı, yoxsulluq kimi hallarla üz-üzə olan konkret uşaq qrupları risk qrupları kimi qiymətləndirilməlidir. Üçüncü bir yanaşmaya görə risk qrupunu hər hansı bir fərdin üzərinə damğa kimi qoymaq yanlışdır və bunun əvəzinə, “riskli mühit”lərin təsvirini verərək sosial proseslərin cərəyan etdiyi sahələr üzərində fokuslanmaq lazımdır (10, s.1). Belə olan halda, müəyyən xüsusiyyətlərin daşıyıcısı olan ailələri bir sosial mühit kimi risk qrupuna aid etmək mümkündür. Lakin riskli mühit kimi, əsasən, icma, məhəllə və məktəb kontekstinə diqqət yetirilir. Məsələn, cinayətkarlıq hallarının geniş yayıldığı icmalar və ya şagirdlərinin orta məktəbi bitirmə nisbətinin aşağı olduğu məktəblər bu cəhətdən risk qrupu kimi qiymətləndirilə bilərlər.

İƏİT “risk altında” termininin gələcək perspektivləri vurğuladığını qeyd edir. Bu yanaşma, “risk altında olan” uşaqların və şagirdlərin onları müəyyən etməyə imkan verən müəyyən xüsusiyyətlər daşıdıqlarını, lakin bu xüsusiyyətlərin hələ baş verməmiş hadisələr və şərtlərlə qarşılaşdıqları zaman problemə çevriləcəyini nəzərdə tutan proqnozlaşdırıcı konsepsiyadır (12, s. 35). Məsələn, İƏİT-in təhsil məsələlərini araşdıran qurumu olan OECD-CERI tərəfindən “risk altında olan” termininin 1995-ci ildə verilmiş operativ tərifində üç element qeyd olunur: 1) məktəbdə uğursuzluq, 2) işə və yetkin həyata keçiddə çətinliklərin artması, 3) sosial uğursuzluq və ya fəal cəmiyyətə tam töhfə vermək ehtimalında azalma (12, s. 22-23). Bu tərif sosial risk anlayışının konkret problemlər üzrə necə konseptuallaşdırıla biləcəyinə dair yaxşı bir nümunə təşkil edir. Lakin nəzərə alınmalıdır ki, o, inkişaf etməkdə olan ölkələrin inkişafına maneə törədən riskləri üzə çıxarmaq məqsədi daşıyan bir qurumun tərifi olduğu üçün universal tərif sayıla bilməz.

“Yüksək riskli” anlayışına gəldikdə isə, bu anlayış sosial təhlillərdə 1980-ci illərdən etibarən istifadə olunan anlayışdır (2, s. 22). Digər anlayışlardan fərqli olaraq, ‘‘yüksək riskli’’ anlayışı sosial cəhətdən həssas olan əhali kateqoriyalarından hər hansı birində yer alan insanların içərisində daha həssas vəziyyətdə olan alt kateqoriyaları müəyyənləşdirmək məqsədilə istifadə olunur. Məsələn, natamam ailələri ‘‘risk qrupu’’ kimi qəbul etsək, ‘‘yüksək riskli’’ natamam ailələr kimi tək qalan valideynin uzun iş saatları ərzində işlədiyi və qohumların dəstəyindən də istifadə edə bilməyən ailəni ayıra bilərik.

İndiyə kimi qeyd etdiklərimizdə sosial risklərə, əsasən, konkret xüsusiyyətlərin daşıyıcısı olan fərd və qrupların cəmi kimi yanaşıldığını gördük. Sosial risklərin daşıyıcısı olan ailələrə gəldikdə, tərifin verilməsi ilə bağlı yuxarıda qeyd etdiyimizə oxşar vəziyyətlə qarşılaşırıq. Belə ki, “sosial risk altında olan ailə” anlayışı elastik anlayışdır və onu ifadə etmək üçün müxtəlif ölkələrdə müxtəlif anlayışlar və təriflərdən istifadə olunur. Həmin ölkələrdəki mədəni və siyasi ənənələr, sosial riskin bir fenomen kimi cəmiyyətdə hansı formada qavranılması və sosial həyatla bağlı olan digər aspektlər bu anlayışın fərqli formalarda qiymətləndirilməsinə təsir göstərir. Lakin bunu demək mümkündür ki, bu anlayışa yer verən ədəbiyyatların mütləq əksəriyyətində ondan uşaqlı ailələrin müəyyən kateqoriyalarını təsvir etmək üçün istifadə olunur.

Vide Qudzinskien və Rimvidas Avqutaviçius tərəfindən verilən tərifdə sosial risk altında olan ailə “18 yaşına çatmamış uşaqları tərbiyə edən və valideynlərindən ən azı birinin bir və ya bir neçə risk faktoru ilə xarakterizə olunduğu ailə” kimi müəyyən edilir (7, s. 2). Burada tədqiqatçılar risk faktoru kimi, alkoqol, narkotik və psixotrop və ya zəhərli maddə asılılığı; qumar aludəçiliyi; sosial bacarıqların olmaması səbəbindən uşaqlarına lazımi qayğı göstərə bilməmək və ya uşaqları həvəsləndirə bilməmək; psixoloji, fiziki və ya cinsi zorakılıq tətbiq etmək; dövlətin maddi dəstəyini ailə ehtiyaclarına sərf etməmək və bu amillərə görə uşağın fiziki, əqli, mənəvi, əxlaqi inkişafı və təhlükəsizliyi üçün təhlükə yaranması hallarını xüsusi vurğulayırlar.

Sosial risk altında olan ailələrdəki mühitin fərqləndirici xüsusiyyətləri kimi bir neçə səciyyəvi cəhəti qeyd etmək mümkündür. Belə ailələrdə əməkdaşlıq qeyri-mütəşəkkil, ünsiyyət isə emosional xarakter daşıyır. Sağlam böyümə və şəxsi inkişafa maneə törədən mənfi davranış vərdişləri səbəbindən uşaqların emosional və fiziki tələbatlarının ödənilməsi çətinləşir və həmçinin ailədəki ünsiyyətin forması uşağın özünüifadə imkanlarını məhdudlaşdırmaqla, öz ehtiyaclarını və hisslərini adekvat şəkildə ifadə etməsinin qarşısını alır (7, s. 3). Belə bir mühitdə uşaqlar həm birbaşa valideynləri ilə yaşadıqları problemlərin, həm də valideynlər arasındakı pozulmuş münasibətlərin mənfi təsirlərinə

məruz qaldıqları üçün ailənin funksionallığının pozulmasından ən böyük zərərçəkən hesab oluna bilərlər.

Sosial risk altında olan ailəyə çevrilməyə səbəb olan risk faktorlarını Vide Qudzinskien və Rimvidas Avqutaviçius aşağıdakı kimi təsnif etmişlrər:

1. Ailənin strukturu (natamam, yoxsul ailələr, daimi qayğıya ehtiyacı olan əlillərin ailələri; üzvü həbsdə olan və ya həbsdən yeni qayıtmış və cəmiyyətə reinteqrasiya prosesindən keçən ailə üzvləri olan ailə və s.).

2. Ailədaxili münasibətlərin təhrif edilmiş xarakteri (ortaq maraqların olmaması, qarşılıqlı inamsızlıq, həmçinin ailə üzvləri arasında qarşılıqlı anlaşma və dəstəyin olmaması, emosional soyuqluq və kobud ünsiyyət) (7, s. 4).

Bu iki risk faktoru qruplarının bir-birinə keçid etməsi də mümkün görünür. Məsələn, ortaq maraqların olmaması, son nəticədə, boşanmaya səbəb ola bilər ki, bunun nəticəsində də ailə natamam ailəyə çevrilə bilər. Və yaxud, bir üzvü həbsdə olan ailənin ailə üzvləri arasında qarşılıqlı inam itə bilər və beləliklə, ailənin strukturu ilə bağlı olan problem ailədaxili münasibətlərin funksionallığının pozulmasına gətirib çıxara bilər.

Haqqında bəhs etdiyimiz mövzu həmçinin birbaşa sosial yardımın təşkilində əsas mərhələlərdən birini təşkil etdiyi üçün sosial xidmətlər göstərən QHT-lər, beynəlxalq təşkilatlar və digər xeyriyyə təşkilatları da öz maraq dairələri və fəaliyyət göstərdikləri cəmiyyətin ehtiyacları əsasında müxtəlif təsnifatlar hazırlaya bilirlər. Məsələn, Umatilla Morrov Head Start agentliyinin ailələrə xidmətlərin müəyyən edilməsi ilə bağlı ‘‘yüksək risk’’ göstəriciləri hesab edilməli olduğunu qeyd etdiyi on bir xüsusiyyət bunlardır:

1. İqtisadi stress halları (yəni, işini itirmək, ödənişləri ödəyə bilməmək, əsas gəlir mənbəyini itirmək, evsizlik). 2. Narkotik istifadəsi, uşaq istismarı və laqeydlik məsələləri və ya məişət zorakılığı. 3. Valideynin təhsil proqramından kənar qalması, 4. Yenicə baş vermiş boşanma və ölüm və ya uzaqlaşma səbəbindən ailə üzvlərinin itirilməsi. 5. Uşaqda inkişaf problemləri (yəni, inkişaf pəncərəsində aşağı bal və ya işə qəbul qeydlərində, sağlamlıq tarixçəsində və ya ümumi müşahidədə qeyd olunan problemlər). 6. Normal həddi aşan və ya şübhəli sağlamlıq, psixi sağlamlıq və ya qidalanma problemləri. 7. Tipik davranışda başqa dəyişikliklər. 8. Cari ailə planının mövcud olduğu icma agentlikləri ilə əlaqədə olan ailələr. 9. Sənədləşdirilmiş sağlamlıq imkanı məhdudluğu olan uşaqlar. 10. Ailənin streslə sağlam və məhsuldar şəkildə mübarizə apara bilməməsinə səbəb olan digər amillər. 11. Ailə savadlılığı problemləri (16, s. 1). Bu bölgünü praqmatik bölgü kimi qiymətləndirə bilərik, çünki burada sənədləşdirilmiş və ya səthi təhlillə üzə çıxarılması mümkün olan amillərə üstünlük verilmişdir. Lakin problemlərin qeydə alınması və sənədləşdirilməsi məsələsindən bəhs edərkən, cəmiyyətlərin inkişaf səviyyələrindəki fərqlərin nəzərə alınması da vacib olduğu üçün bu bölgünü təkmil bölgü hesab etmək mümkün deyil.

Banq Suk Myunqun rəhbərliyi ilə yüksək riskli ailələri təyin etmək üçün zəruri olan faktorların müəyyən edilməsi məqsədilə aparılan tədqiqatda intensiv ədəbiyyat təhlili aparılmaqla 34 ailədə risk faktoru müəyyən edilmişdi. Daha sonra tədqiqatçılar tərəfindən yüksək risk altında olan və aşağı risk altında olan ailələr arasında müqayisə aparılaraq, müəyyən edilmiş 34 risk faktoru azaldılaraq 25 risk faktoruna endirilmişdir. Yüksək risk altında olan ailəni müəyyən etmək üçün bu tədqiqatçılar tərəfindən seçilmiş 25 risk faktoru aşağıdakılardır:

1. Boşanma və ya partnyorun ölümü nəticəsində ortaya çıxmış natamam ailə və ya nikahsız tək ana. 2. Qohumluq əlaqəsi olmayan ailə üzvlərinin mövcud olduğu ailə. 3. Azyaşlı uşağı olan, işləyən ananın olduğu ailə. 4. Daimi gəlir mənbəyi olmayan ailə. 5. Qaydasızlığın hökm sürdüyü və ya çox sərt qaydaları olan ailə. 6. Üzvlərinin bir-birinə az dəstək göstərdiyi və ya heç bir dəstək göstərmədiyi ailə. 7. Dostlar və ya qohumlar tərəfindən az dəstək görən və ya heç bir dəstəyi olmayan ailə.

8. Üzvlərinin bir-birləri ilə bölüşməyə vaxtı az olan və ya vaxtı olmayan ailə. 9. Ailə üzvlərindən birinin hipertoniya, diabet, xərçəng xəstəliyi tarixçəsi olan ailə.

10. Xəstə bir üzvü olan ailə. 11. Ruhi xəstə üzvü olan ailə. 12. Əlil üzvü olan ailə. 13. Alkoqol aludəçisi bir üzvü olan ailə. 14. Gündə 1 paketdən çox siqaret çəkən, siqaret aludəçisinin olduğu ailə. 15. Pəhrizində həddən artıq çox duz qəbulu olan ailə, 16. Ailə sağlamlığı üçün münasib idarəetmə bacarıqları olmayan ailə.

17. Ailənin sağlamlıq problemlərini həll etmək üçün xəstəxanadan daha çox aptekdən istifadə edən bir ailə. 18. Ər-arvad arasında ahəngdar münasibətin mövcud olmadığı ailə. 19. Ailə üzvləri arasında münaqişələr olan ailə. 20. Ailə üzvləri arasında qeyri-bərabər əmək bölgüsü olan ailə. 21. Avtoritar ailə strukturuna malik olan ailə. 22. Sosial olaraq təcrid olunmuş ailə. 23. Yaşayış sahəsi sayılmayan yerdəki bir evdə məskunlaşmış ailə. 24. Bədbəxt hadisə ilə qarşılaşmaq riski yüksək olan ailə. 25. İçməli su və kanalizasiya sistemlərinin gigiyenik olmadığı hal (11, s. 360-361).

Tədqiqatçıların bu bölgüsü kifayət qədər əhatəli bölgü olmaqla, yuxarıda risk qrupu ailələri ilə bağlı qeyd olunan digər bölgülərin də əhəmiyyətli bir hissəsini özündə ehtiva edir. Bu bölgüləri qiymətləndirərkən nəzərə almaq lazımdır ki, lokal amillərin, yerli adətlərin və icmaların qarşılaşdıqları spesifik problemlərin çox müxtəlif olması, onların hamısını əhatə edən təkmil bir siyahı hazırlamağı çətinləşdirən bir amil olaraq qarşımızda durur.

İngiltərənin uşaqlar üzrə müvəkkilliyinin risk faktorları arasında hansılarının daha təhlükəli olması ilə bağlı qiymətləndirməsi “zəhərli üçlük” adlanan baxış kimi ifadə olunur. Bu üçlüyə narkotik və alkoqol maddə asılılığı, məişət zorakılığı və psixi sağlamlıq problemlərinin mövcudluğu daxildir (21). Daha da konkretləşdirsək, narkotik və ya alkoqol asılılığının olduğu ailələrdəki uşaqlar, yetkinlərin son bir ildə partnyoru tərəfindən zorakılığa məruz qaldığı ailələrdəki uşaqlar, yetkinlərin kliniki olaraq diaqnozu qoyula bilən psixi sağlamlıq vəziyyətinin olduğu ev təsərrüfatlarındakı uşaqlar yuxarıdakı siyahılarda qeyd olunan digər qruplardan daha artıq diqqət və qayğıya ehtiyac duyurlar. “Zəhərli üçlük”dən hər hansı birinin və ya bir neçəsinin mövcud olduğu ailələrdə uşaqlar həm həmin dövrdə zərər görür, həm də onların sonrakı həyatlarının axarının mənfi yönə çevrilməsi ehtimalı güclənir.

Sosial risklər sahəsindəki terminoloji müxtəliflikdən bəhs edərkən bunu da qeyd etmək lazımdır ki, bəzən fərdlər və ailələr eyni anda bir neçə riskin daşıyıcısı kimi çətinliklərlə qarşı-qarşıya qalırlar. Çoxsaylı problemlərlə üzləşən və müxtəlif vasitələrlə dövlətin sosial xidmətlərindən istifadə etməli olan ailələr anlayışı psixoloji, politoloji, sosial işlə bağlı olan və sosioloji ədəbiyyatda zəngin əsasa malikdir. Bu ailələri təsvir etmək üçün müxtəlif terminlərdən istifadə edilmişdir, lakin ən çox istifadə edilən anlayış “çoxproblemli ailə” anlayışıdır (6, s. 88-89).

Bunu da qeyd etmək lazımdır ki, risk qrupu ailələri kimi ifadə edilən ailələrin bu qrupa daxil olmasına səbəb olan problemlər bir-birləri ilə əlaqəlidir və bir çox hallarda biri digərinin meydana çıxmasının təkanverici amili kimi çıxış edə bilir. Məsələn, narkotik maddə asılılığı boşanma üçün, psixoloji xəstəliklər məişət zorakılığı üçün, əqli gerilik yoxsulluq üçün və s. meydanaçıxma səbəbləri arasında yer ala bilər.

Çoxproblemli ailələr mövzusunda ilk ədəbiyyat 1950-ci illərdə yaradılmış və bu ailələrdə deviantlığa və təcrid olunmaya, xüsusən də onların əsas xüsusiyyətləri kimi xaos, nizamsızlıq və disfunksiyaya diqqət yetirilmişdir. Uşaqlara qarşı pis rəftarla bağlı ədəbiyyatlarda sosioloqlar və pedaqoqlar uşaqlara zərərvurma riskini artıran valideyn xüsusiyyətlərinə diqqət yetirməyə başlayanda ‘‘çoxproblemli ailə’’lər konsepsiyası meydana çıxdı ki, bu da uşaqlara qarşı zorakılığın valideynlərin şəraitlərinin, təcrübələrinin və xüsusilə travmalarının məhsulu kimi görülə biləcəyi barədə məlumatlılığın artmasına səbəb oldu (6, s. 88-89). Bu anlayış ailələri psixi və fiziki sağlamlıq vəziyyəti, məktəbdəki problemlər, ailədaxili münasibət problemləri və hüquqi problemlər kimi müəyyən sayda maneələr və ya çətinliklər üzrə tədqiq edən holistik araşdırmalarda istifadə olunan termindir.

Şlomo Şarlin və Mixal Şamai iddia edirlər ki, çoxproblemli ailələr anlayışının kökü “yoxsulluq mədəniyyəti”ndədir, bu ailələrdə nəsillər boyu miras qalan disfunksiya “yoxsulluq şəxsiyyəti”ni təmsil edir. Şarlin və Şamainin fikrincə, orta sinfin təmsilçisi olan ailələr çoxproblemli ailələr ola bilər, ancaq bu, “aşağı sinif çoxproblemli ailələri xarakterizə edən dəyər və vərdişləri dəf edə bilmədikdə baş verir” (14, s. 94).

Sosial risklərin mövcudluğu onlardan qorunma mexanizmlərinin yaradılmasını da tələb edir. Vətəndaş cəmiyyətinin yüksək inkişafı ilə səciyyələnən ərazilərdə vətəndaşları risklərdən qoruma mexanizmində dövlətlərin üzərinə düşən yükün böyük bir hissəsini QHT-lər öz üzərlərinə götürə bilirlər. Lakin istənilən halda, sosial risk altında olan ailələrin qarşı-qarşıya olduqları risklər bir çox hallarda onların bu və ya digər formada rəsmi dövlət qeydiyyatına alınması ilə nəticələnir. Məsələn, yoxsulluq, alkoqolizm, narkotik və ya psixotrop maddə asılılığı, zorakılıq, depressiya, ailədə və

cəmiyyətdə diskriminasiya, uşaqların məktəbə getməməsi, evdən qaçma halları, cinayət və deviant fəaliyyətə cəlb olunmaları onların qeydiyyata alınmasını labüd edir.

Bunu da qeyd etmək vacibdir ki, dövlətlər və hökumətlər nə qədər səxavətli olsalar belə, hər kəsi həyatın bütün risklərindən qoruya bilməzlər. İqtisadi tənəzzüllər, böhranlar və ya təbii fəlakətlər müntəzəm olaraq baş verir. Müasir dünyada insan həyatı ilə bağlı əhəmiyyətli risklərdən qorunmağın əsas aləti sosial sığorta mexanizmi hesab olunur. Sığortada iştirak edərək xüsusi riski bölüşən şəxslər “risk hovuzu”nu təşkil edirlər (13, s. 101-102). Bunun daha böyük miqyası rifah dövlətidir ki, orada vətəndaşlar özlərini həyat risklərindən sığortalamaq üçün müştərək şəkildə iştirak edirlər. Risklərdən sığortalanma nəticəsində, ağır xəstəlik və ya işin itirilməsi halı ailələr və ya fərdlər üçün ağır iqtisadi yük yaratmır.

Risk altında olan ailələrə hansı ailə qruplarının daxil olduğunu müəyyənləşdirmək, son nəticədə, həmin ailələri risklərdən qorumaq üçün müvafiq müdaxilə proqramlarının tətbiqini tələb edir. Bu mənada Blaasvaer N, Noklebi H, Yohansen S. və Berq R.C. tərəfindən risk qrupu ailələrinə müdaxilələrin beş kateqoriyası qruplaşdırılmışdır:

1. Psixoloji, psixo-təhsil və psixo-sosial müdaxilələr. 2. Valideynlik müdaxilələri/təlimi/rəhbərlik. 3. Ev ziyarətləri. 4. Ana-uşaq bölmələri. 5. Maddi yardım (4, s. 7). Ailələrlə işləyən sosial işçilərin, ailə terapiyasını həyata keçirə bilən psixoloqların və peşəkar pedaqoqların yetişdirilməsi, bu sosial müdaxilə üsullarının səmərəli olmasının ilkin şərtləri arasında yer alır.

İƏİT öz hesabatlarında ‘‘risk qrupu’’ ailələrinin övladlarına xidmətləri qiymətləndirmək üçün onları üç yaş qrupuna ayırmışdır və yaş qrupları üzrə ailələrin ehtiyac duyduqları xidmətlərin fərqli sahələrdə olduğunu təsdiqləmişdir (12, s. 8). Belə ki, məktəbəqədər yaşda uşaqları olan ailələr səhiyyə xidmətlərinin mühüm istehlakçıları olduqları halda, təhsil xidmətlərinin istehlakçıları məktəb yaşlı şagirdlərin ailələridir. İşə keçid dövründə olan gənclər isə, peşə və məşğulluq üzrə xidmətlərdən daha çox faydalanırlar.

Müdaxilə və sosial yardımlardan əlavə digər bir amil də risk faktorlarının azaldılması və aradan qaldırılmasına kömək edir ki, bu da “qoruyucu amillər” adlandırılan fenomendir. Riskə məruz qalmanın təsirini yumşaldan bu amillər fərdlərin, ailələrin, icmaların və ya daha böyük cəmiyyətin şərtləri və ya atributlarıdır ki, mövcud olduqları halda rifahı təşviq edir və mənfi nəticələr riskini azaldır, məktəbdə, işdə və həyatda nailiyyətlər əldə etməyə kömək edirlər.

| **Fərdi Səviyyə** | **Münasibət Səviyyəsi** | **İcma Səviyyəsi** |
|---|---|---|
| Özünütənzimləmə bacarıqları | Valideynlik səriştəsi | Dəstəkləyici icma mühiti |
| Əlaqə yaratma bacarıqları | Mehriban həmyaşıdlar | Müsbət məktəb mühiti |
| Problem həlletmə bacarığı | Qayğıkeş böyüklər | İqtisadi imkanlar |
| Müsbət fəaliyyətlərdə iştirak | Təqdirəlayiq şəxsi davranış nümunələri göstərən yaxınlar | Ənənəvi mədəni fəaliyyətlərdə iştirak |
| Fiziki və psixoloji sağlamlığın qayğısına qalmaq | Altruist normaların münasibətlərdə hakim olması | Proaktiv sosial xidmətlərin mövcudluğu |
| Təhsilə və intellektual inkişafa əhəmiyyət vermək | Özünəinam və optimizm təlqin edən münasibətlər | Asudə vaxtın səmərəli təşkili imkanları |

***Cədvəl. Sosial risk faktorlarından qoruyucu amillərin təsnifatı***
(5, s. 2; 22; 23).

Bu amillərə fərdlərin risklərdən uzaq qalmaq üçün təkan aldıqları təşviqedici amillər kimi və yaxud da risklərin təsirlərini ağır yaşamamaları üçün tramplin rolunu oynayan amillər kimi baxa bilərik. Qoruyucu faktorların varlığı ilə yanaşı, onların varlığının fərd tərəfindən qavranılması da risklərdən müdafiə üçün ödənilməli olan şərtlərdən biridir. Bu faktorların mövcudluğu halında, şəxsin görə

bilmədiyi fürsətləri görməkdə ona kömək edən, özünəinam aşılayan və riskin yükünü aralarında bölüşən yaxınlardan ibarət dəstək və resurs sistemi qurulur.

**İstifadə olunmuş ədəbiyyat**

1. AMCJ reports, (2006), Vulnerable Populations: Who Are They? Supplements and Featured Publications, Prescription Drug Copays and Their Effect on Vulnerable Populations, Volume 12, Issue 13.

2. Balster L., (2012), At-Risk Families & Schools: Becoming Partners.

3. Bauer P., (2004), Vulnerable Families: Reflections on a Difficult Category.

4. Blaasvaer N., (2015), The effect of interventions for at-risk families with children 0-6 years Norwegian Knowledge Centre for the Health Services. ISBN: 978-82-93479-03-1

5. Development Services Group, Inc., & Child Welfare Information Gateway, (2015), Promoting protective factors for in-risk families and youth: A guide for practitioners. U.S. Department of Health and Human Services, Administration on Children, Youth and Families, Children's Bureau.

6. Goerge R. M., Wiegand E. R., (1993), Understanding Vulnerable Families in Multiple Service Systems.

7. Gudzinskiene V., Augutavicius R., (2016), The phenomenon of social risk families and its dynamics in Lithuania.

8. Handbook of Vital Statistics Systems and Methods, (1991), Volume 1: Legal, Organisational and Technical Aspects, United Nations Studies in Methods, Glossary, Series F, No. 35, United Nations, New York.

9. Merritt S., (1986), Working with Indigenous Children and Families at risk.

10. Moore K. A., (2006), Defining the term "at risk".

11. Myung B. S., (2011), The factors to identify high risk family. +

12. OECD., (1999), Children and Families at Risk: New Issues in Integrating Services. OECD Publishing

13. Ronald J. A., Jacqueline L. A., (2017), Hispanic Families at Risk: The New Economy, Work, and the Welfare State.

14. Shlomo A., Michal S., (1995), "Intervention with Families in Extreme Distress (FED)." Marriage and Family Review.

15. WHO. (2002), The nature of emergencies and disasters: General Aspects.

16. Definition of Families At Risk or Of High Risk Families:
https://umchs.com/wp-content/uploads/Definition-of-High-Risk-Families.pdf

17. Republic of Lithuania Law Amending The Law on Cash Social Assistance for Poor Families and Single Residents:
https://www.ilo.org/dyn/natlex/docs/ELECTRONIC/9082/103621/F1395795077/LTU90082.pdf

18. Constitution of the WHO: https://www.who.int/about/governance/constitution

19. Sosial xidmət haqqında AR QANUNU: http://www.e-qanun.az/framework/23195

20. USAID Helps At-Risk Families Function Effectively:
https://by.usembassy.gov/usaid-helps-at-risk-families-function-effectively/

21. Children in families at risk – Local area maps:
https://www.childrenscommissioner.gov.uk/vulnerable-children/children-in-families-at-risk-local-area-maps/

22. Risk and protective factors: https://www.publicsafety.gc.ca/cnt/cntrng-crm/crm-prvntn/fndng-prgrms/rsk-fctrs-en.aspx

23. Risk and Protective Factors for Youth: https://youth.gov/youth-topics/youth-mental-health/risk-and-protective-factors-youth

## ОПРЕДЕЛЕНИЕ ЛИЦ ИЗ ГРУППЫ СОЦИАЛЬНОГО РИСКА

**Рамиль Бабаев**

**Резюме**. В данной статье рассматриваются терминологические вопросы, связанные с понятием «группа риска» в социологии и классификацией групп данной категории. В статье представлены понятия, используемые в качестве альтернатив в данном контексте. Этот анализ объясняет причины различий в классификациях, относящихся к группам населения.

***Ключевые слова***: *социальный риск, группа риска, уязвимые слои населения, тяжелые условия жизни, защитные факторы*

## DEFINING THE CIRCLE OF VULNERABLE GROUPS UNDER SOCIAL RISK

**Ramil Babayev**

**Abstract**.This article discusses the terminological issues related to the concept of "risk group" in sociology and the classification of groups in this category. The article introduces the concepts used as alternatives in this context. This analysis explains the reasons for the differences in classifications related to population groups.

**Keywords**: social risk, risk group, vulnerable population, difficult living conditions, protective factors